***ÖN SÖZ YERİNƏ***

## NOBEL KÜRSÜSÜNDƏ MÜHAZİRƏ

1901-ci ildən bəri hər ilin ədəbi hadisələri arasında ədəbiyyat üzrə Nobel mükafatı laureatının elan olunması, mükafatın təqdimetmə mərasimi, laureatın nitqi və mühazirəsi başlıca yerlərdən birini tutur.

Hər il oktyabr ayı yaxınlaşdıqca ədəbiyyatçılar, bukmeker kontorları və oxucular mükafatı almağa şansı olan yazıçılarla, Nobel Komitəsinin qərarı ilə bağlı ağlagəlməz proqnozlar söyləyirlər, həmin proqnozlar isə çox nadir hallarda düz çıxır.

Hər ilin dekabrında ədəbiyyat dünyasının və oxucuların gözü-qulağı İsveçin paytaxtı Stokholma, İsveç Akademiyasına çevrilir, mükafatlandırma mərasimi barədə reportajları və məlumatları, laureatların mühazirələrini, nitqlərini böyük maraqla izləyirlər.

Çox vaxt hətta rusdilli məkanda belə, nəinki oxucular, bəzi mütəxəssislər də Nobel nitqləri ilə Nobel mühazirələrini qarışdırırlar. Nobel nitqi – dekabrın 10-da *(Alfred Nobelin vəfatının ildönümü günündə)* laureatların şərəfinə verilən banketdə təşəkkür müqabilində söylənən nitqdir, daha az rəsmi xarakter daşıyır, laureat cəmi iki-üç dəqiqə ərzində təltifə görə minnətdarlığını ifadə edir, həm də yaradıcılıq problemlərindən söz açır. Bu cəhətdən, yalnız 1903-cü ilin laureatı Byörstorne Byörnsonun və 1908-ci ilin laureatı Selma Lagerlöfün Nobel nitqləri istisna təşkil edir, həmin mətnləri həm həcminə, həm də üslubuna görə Nobel mühazirəsi adlandırmaq mümkündür.

Nobel mühazirəsi isə – laureatın xüsusi hazırladığı, bir qayda olaraq, dekabrın 7-də *(bu qayda nadir hallarda dəyişilir)* İsveç Akademiyasında, yaxud Stokholm universitetində keçirilən təntənəli təqdimetmə mərasimində oxuduğu elmi və yetərincə ətraflı mühazirədir. Bu cür mühazirə təkcə yazıçının öz yaradıcılığının kamil-

lik zirvəsinə gedən yolunu dərk etməyə deyil, həm də onun üslubunu və təhkiyəsini duymağa, şəxsiyyətini daha yaxşı anlamağa yardım göstərir. Hər bir mühazirə müəllifin fərdi cəhətlərini açıb göstərmək üçün səmərəli vasitədir. Nobel mükafatının bütün tarixi ərzində laureatlar onlara verilmiş mühazirə oxumaq imkanından fərdi şəkildə istifadə etsələr də, bu sərbəstlik heç də onların təqdim etdikləri mətnin səviyyəsini aşağı salmır. Bunun nəticəsidir ki, Nobel mühazirələri daim oxucuların da, mütəxəssislərin də diqqətini çəkir.

Nobel mükafatı laureatları İsveç Akademiyasında və Oslo universitetində öz mühazirələrini doğma dillərində oxumaq *(sinxron tərcümə ilə)* hüququna malikdirlər. Sonra mətnlər Nobel Komitəsinin müəyyənləşdirdiyi əsas *(ingilis, alman, fransız, ispan, İsveç, Norveç)* dillərinə tərcümə edilir, xüsusi bülletendə dərc edilir, son dövrlərdə isə saytda yerləşdirilir. Artıq Nobel nitqləri ilə yanaşı, Nobel mühazirələrinin də toplu şəklində nəşri geniş yayılıb.

İlk yarım əsr ərzində laureatın mühazirə oxuması könüllü xarakter daşıdığına görə, Nobel mühazirəsi çətin formalaşma yolu keçib. Belə ki, ilk Nobel mühazirəsini oxumaq yalnız 1908-ci ildə laureat adını qazanmış filosof Rudolf Eykenə qismət olub, bu hadisə də o, təqdimetmə mərasiminə getmədiyindən, "Naturalizm, yaxud idealizm" adlandırdığı ənənəvi Nobel mühazirəsini vaxtından xeyli gec – 1909-cu il martın 27-də oxuyub. Növbəti Nobel mühazirəsi isə yalnız 1923-cü ildə gerçəkləşib, yeni laureat Vilyam Batler Yeyts çıxışını tamamilə İrlandiya dram hərəkatına həsr edib. 1930-cu ildə laureat adını qazanmış Sinkler Lüis isə Amerika ədəbiyyatından söz açıb, ölkəsinin yazıçılarını Nobel kürsüsündən dünyaya tanıdıb.

Bundan sonra Nobel mühazirəsinin tarixində tam 30 illik fasilə yaranıb, laureatların mühazirə oxumağa meyil göstərməməyi ilə yanaşı, araya Birinci dünya müharibəsinin düşməsi də fasilənin uzanmasına səbəb olub, nəhayət, bir daha filosofun səyi nəticəsində ölü nöqtədən tərpənib, 1950-ci ilin laureatı Bertran Rassel yetərincə ətraflı və mürəkkəb Nobel mühazirəsini insan arzularına həsr edib.

Yenə araya düşən fasilədən sonra 1957-ci ilin laureatı Alber Kamü təşkilatçıların ədəbiyyat üzrə Nobel mükafatı laureatı üçün arzulanan ilk mühazirəni oxuyub, yazıçı və yaradıcılıq haqqında söz açıb. 1958-ci ildə Nobel mükafatından imtinaya məcbur edilmiş Boris Pasternakın Nobel kürsüsünə yolu bağlandığından növbəti il italyan şair Salvatore Kvazimodo çıxışını "Şair və siyasətçi" adlandırıb, poeziya ilə siyasət arasındakı əlaqələri çözməyə çalışıb. 1963-cü ilin laureatı yunan şairi Yorqos Seferis və 1968-ci ilin laureatı Yasunari Yavabata yenidən Nobel mühazirəsinin mövzusunu öz ölkələri ilə məhdudlaşdırıb, yunan və yapon ədəbi ənənələrindən söz açıblar, 1967-ci ildə Nobel kürsüsünə çıxmış qvatemalalı Migel Asturias isə çıxışının əhatə dairəsini genişləndirib, bütövlükdə Latın Amerikası romanının keçdiyi yol haqqında danışıb.

Ədəbiyyat üzrə Nobel mükafatları tarixində 60-cı illər fransız yazıçı və filosof Jan-Pol Sartrın laureat adından imtinası ilə yadda qalıb. Sartr Nobel Komitəsinə və mətbuata verdiyi açıqlamada imtinasının səbəblərindən ətraflı söz açıb. Xüsusilə yazıçının mətbuata açıqlamasını çıxmaqdan imtina etdiyi Nobel kürsüsündən oxunmuş mühazirə kimi dəyərləndirmək olar. Həmin mətndə Sartr ədəbiyyata münasibətini aydın ifadə edir, öz yazıçı kredosunu ortaya qoyur. Onu da qeyd edək ki, yazıçı sonralar əqidə dostlarına maddi yardım göstərmək üçün mükafatın pul hissəsini almaq niyyətinə düşüb, lakin məbləğ artıq Nobel fonduna qaytarıldığına görə, bu məqsədinə çata bilməyib. İnamla demək olar ki, Nobel mühazirəsi institutu yalnız 70 ildən sonra, 1970-ci illərin əvvəllərindən qəti şəkildə formalaşıb. 1973-1974-cü illərdə Patrik Vayt, Eyvind Yonson və Harri Martinsondan başqa bütün laureatlar *(Pablo Neruda, Henrix Böll, Eucenio Montale, Sol Bellou, Visente Aleysandre, İsaak Başevis-Zinger, Odisseas Elitis)* Nobel kürsüsündən mühazirə oxuyub, öz yaradıcılıq yollarından, mənsub olduqları ölkənin ədəbi ənənələrindən, ədəbi problemlərdən söz açıblar. Əlbəttə ki, bu ifadəni 1970-ci ilin laureatı Aleksandr Soljenitsınla bağlı rəmzi mənada başa düşmək lazımdır, çünki o, SSRİ-dən çıxmaq imkanı olmadığına görə, Nobel

mühazirəsini Stokholma gizli şəkildə göndərmiş, mətn tərcümə edilib Nobel Komitəsinin xüsusi bülletenində oxuculara çatdırılmışdı.

80-ci ildə Nobel mühazirəsi formatından yalnız iki laureat – yazıçı-filosof Elias Kanetti və romançı Klod Simon – imtina edib, lakin bu fakt onilliyin mənzərəsinə xələl gətirmək iqtidarında deyil. Belə ki, Qabriel Qarsia Markesin Latın Amerika tənhalığı, Vilyam Qoldinqin ədəbiyyatın vəzifəsi, Yaroslav Seyfertin lirizm və zəkanın lirik halı, İosif Brodskinin bütövlükdə söz sənəti, Kamilo Xose Selanın ədəbi uydurma haqqında mühazirələri hər zaman maraqla oxunacaq. Bole Şoyinkanın ədəbiyyat və siyasət, Nəcib Məhfuzun lider və düşüncə ilə bağlı mətnləri isə daha çox mənsub olduqları regionun – Afrika və Yaxın Şərqin – mənəvi və siyasi mənzərəsini əks etdirir.

90-cı illərdə Nobel mühazirəsi kanonlarının formalaşması prosesi başa çatır. Bu kanon isə həddən artıq özünəməxsusdur. Nobel mühazirəsində sanki yazıçı öz həyatını və yaradıcılıq prosesini sona çatdırır, onların mənasını son dəfə özü üçün aydınlaşdırır *(əlbəttə ki, bu ifadə Redyar Kiplinq, Vilyam Folkner, Ernest Heminquey, Alber Kamü, Qabriel Qarsia Markes, İosif Brodski, Orxan Pamuk, Mo Yan kimi, Nobel mükafatı üçün yetərincə gənc sayılan yazıçılara aid deyil).* Həmin məqamda laureat tamamilə tənha olur, xeyirxah niyyətli, amma tanımadığı, yaxınlıq duymadığı dinləyicilərə müraciət edir. Bu, insan münasibətlərinin hamı tərəfindən qəbul edilmiş modeli sayılır. Yazıçı kürsüdə olduğu məqamda nəyə görə yaşadığını, hansı məqsədlə tamam başqa bir aləm yaratdığını yalnız özü üçün aydınlaşdırmağa çalışır. Nobel mühazirəsi, əslində, laureatın sona çatan ömür və yaradıcılıq yolu qarşısındakı mətanətini sınaqdan keçirmə üsuludur.

Artıq Nobel Komitəsinin qərarına görə, laureat, ən azı, 6 ay ərzində Nobel mühazirəsini təqdim etməlidir, əks təqdirdə mükafatının pulla ifadə edilən hissəsi onun hesabına köçürülmür. Belə bir hal 2016-cı ilin laureatı Bob Dilanla baş vermiş, o, 2017-ci ilin iyununda Nobel mühazirəsini təqdim etdikdən sonra ayrılmış məbləğə sahib ola bilmişdi. Əlbəttə, formatla bağlı maraqlı istisnalara da yol verilir. Məsələn, 2011-ci ilin laureatı Tumas Tranströmer fi-

ziki məhdudiyyəti üzündən təqdimetmə mərasiminə gedə, Nobel mühazirəsi oxuya bilmədiyinə görə, onu təntənələrdə təmsil edən həyat yoldaşı formata laureatın şeirlərini oxumaqla əməl edib. Yaşlı və xəstə olduqlarına görə mərasimlərdə iştirak edə bilməyən Doris Lessinq və Elis Munro, eləcə də psixoloji böhran keçirən Elfride Yelinek isə Nobel mühazirələrini nümayəndələrinin çıxışı, yaxud videogörüntü ilə gerçəkləşdirmişlər ki, bunu da Nobel Komitəsi məqbul hesab edir.

Nobel mühazirələri müəlliflərin zaman və məkan axtarışlarını da bariz şəkildə ortaya qoyur. Oxucunun gözləri qarşısında Çeslav Miloşun Vilnosu, Derek Volkott və Vidia S.Naypolun Trinidadı, İosif Brodskinin Leninqradı, Dario Fonun Milanı, Orxan Pamukun İstanbulu, Mo Yanın Qaomisi, Patrik Modianonun Parisi, Kazuo İşiquronun Londonu... canlanır. Demək olar, əksər yazıçıların da düşüncələrinin mərkəzində tənhalıq duyğusu, *"otaqda tək qalmaq" (O.Pamuk)* istəyi dayanır. O, tənhalıq məqamında xəyalındakı aləmin dərinliyinə baş vurur, yaratdığı kompozisiyanı tədricən cilalayır, nəticədə ortaya bitkin əsər çıxarır.

Onu da qeyd edək ki, Nobel mükafatına iddiaçıların siyahısı ancaq 50 ildən sonra elan edilir. Son açıqlamalara görə, Jorji Amadunun, Xorxe Luis Borxesin, Lui Araqonun, Alberto Moravianın, Qrem Qrinin, Nikolay Bajanın, Ceyms Bolduinin, Alexo Karpentyerin, Lourens Darrellin, Artur Millerin, Tennessi Vilyamsın, Vladimir Nabokovun, Visten Hyu Odenin... Nobel kürsüsünün cəmi-cümlətanı bir addımlığında olduqlarını öyrənirik. Əlbəttə, həmin nominantların hər biri Nobel mühazirələri ilə ədəbi fikri zənginləşdirmək qüdrətinə malik olan qələm sahibləridir.

Beləliklə, bu qənaətdəyik ki, oxuculara təqdim edilən və 1901–2022-ci illəri əhatə edən ədəbiyyat üzrə Nobel mükafatı laureatlarının mühazirələrindən ibarət sanballı toplunun Azərbaycan dilində ilk dəfə işıq üzü görməsi ədəbi fikrimizdə əlamətdar hadisə kimi yadda qalacaq.

***Nəriman Əbdülrəhmanlı***

# 1908

## RUDOLF EYKEN

***(ALMANİYA)***

## NATURALİZM, YOXSA İDEALİZM

***(STOKHOLM, 27 MART 1909-CU İL)***

***(İXTİSARLA)***



Bəşəriyyət tarixində çox qədim, eyni zamanda da həmişə yeni olan bir sıra məsələlər məlumdur: buna görə çox qədimdirlər ki, hər cür həyat tərzi sanki həmin məsələlərə cavabdır; həmişə də buna görə yenidirlər ki, həyat obrazı həmin məsələlərdən asılıdır, fasiləsiz dəyişirlər və böhranlı məqamlarda o qədər dəyişə bilərlər ki, neçə-neçə nəsillər boyu məqbul sayılan həqiqətlər gözlənilmədən aşkar münaqişə və anlaşılmazlıq doğuran problemlərə çevrilirlər.

Naturalizm və idealizm arasındakı bu gün rastlaşdığımız ziddiyyət də bu cür məsələlərə aiddir. Həmin anlayışların mənası uzun-uzadı istifadə üzündən itib; nəticədə çoxlu anlaşılmazlıqlar yaranır, biz yalnız öz tənbəlliyimiz üzündən hələ də bu söz qəliblərindən istifadə edirik. Amma elə sözlərin adekvatlığı da arxalarındakı, insanları iki cəbhəyə ayıran əsl ziddiyyəti ört-basdır etmək iqtidarında deyil. Bu ziddiyyət bizim bütövlükdə gerçəkliyə və həyatımızın müəyyənləşdiyi son vəzifəyə münasibətimizlə əlaqədardır; o insanın təbiətdən tamamilə asılı olub-olmamağı, yaxud onun, heç olmasa, müəyyən bir radikal üsulla təbiətin fövqünə ucalması məsələsi ilə əlaqədardır.

Hamımız etiraf edirik ki, insan təbiətə çox sıx tellərlə bağlıdır və həmin telləri qırmamalıdır. Amma insanlar daim bir fərdin bütün varlığının, bütün fəaliyyətinin və əzablarının həmin bağlarla determinə edilib-edilmədiyi, yaxud onun gerçəkliyin müəyyən bir yeni mərhələsindən üstün olan başqa cür bir həyata malik olub-olmadığı ilə bağlı daim mübahisə ediblər və bu cür mübahisələr indi də davam edir. Birinci nəzər-nöqtəsi naturalizm, ikinci nəzər-nöqtəsi isə idealizmlə bağlıdır, bu iki mövqe də həm öz məqsədlərinə, həm də həmin məqsədlərə çatmaq üsullarına görə prinsipial cəhətdən fərqlidir. Çünki insanın başqa həyatı yalnız onun təxəyyülündə mövcuddur, biz onun izlərini insanın şüurundan və sosial təsisatlardan silməliyik. Bundan əlavə, biz təbiətlə maksimum dərəcədə sıx əlaqələrin qurulmasına və insan həyatının təbii xüsusiyyətinin mümkün qədər saf təcəssüm etdirilməsinə cəhd göstərməliyik; çünki həyat özünün təbii qaynaqları ilə təbii əlaqələrini – bir vaxt etinasızcasına qırdığı, bununla da özünə böyük ziyan vurduğu əlaqələrini – bərpa edəndə – həmin məqamda bərpa edə bilər. Həm də əksinə, əgər insanda təbiət elementindən başqa hər hansı bir ayrı elementin mövcudluğunu qəbul etsək, onda məsələ həmin elementə daha çox yardım göstərməkdən və onu təbiətə qarşı qoymaqdan ibarət olacaq. Belə olan halda biz etiraf etməli olacağıq ki, həyat üçün məhz həmin element daha vacibdir, təbiətə də buna uyğun tərzdə münasibət göstərəcəyik. Xatırlatdığımız iki mövqe arasındakı ziddiyyət daha aşkar şəkildə insanın könlündə bu və ya digər sistemə hansı yer ayrıldığında təzahür edir.

Təbiət əlbəttə ki, ruhi həyata bu və ya digər dərəcədə təsir göstərir, həm də çoxsaylı üsullarla insan həyatına dərin təsir göstərir. Amma ruhun anadangəlmə, yaxud təbii həyatı ikinci dərəcəli əhəmiyyətə malikdir, necə deyərlər, yalnız təbiətin

maddi fenomenlərinə əlavədir. Onun yeganə məqsədi – insan həyatının qorunub saxlanmasıdır; yəni, insanın ali psixi xüsusiyyətləri – onun zəkası və qabiliyyəti – qaba qüvvənin çatışmazlığını, hərəkətin tezliyini və hisslərin kəskinliyini, heyvanlara izafi bəxş olunmuş keyfiyyətləri kompensasiya edir. Amma ruhlar özlərinin ən ali formalarında belə, öz-özlüyündə heç bir məqsədə və məzmuna malik deyillər; ruh müəyyən bir muxtar, parçalara ayrılmış təzahürlərin konqlomeratı olaraq qalır. O bütün canlıların müəyyən bir daxili ümumiliyinin hissəsinə çevrilmir və daxili aləmin individuallığını – bütövlüyünü – təşkil etmir. Axı fəaliyyət heç zaman hər hansı daxili hədəfə deyil, yalnız həyatı qoruyub saxlamağın utilitar məqsədinə yönəlir.

Naturalizm özünə sadiq qaldığı təqdirdə insanın həyatını həmin normaya reduksiya edir. İdealizm isə əksinə, daxili məkanın muxtariyyətini nəzərdə tutur; idealistik nəzər-nöqtəsinə görə ayrı-ayrı həyat fenomenləri bir bütövdə birləşib vahid daxili aləmi təşkil edir. Bununla yanaşı, idealizm insan həyatının yalnız ona xas olan dəyərlərə və vəzifələrə – həqiqətə, xeyirə, gözəlliyə – diqqət yetirməsini tələb edir. İdealist nəzər-nöqtəsinə əsasən, bütün insan cəhdlərinin faydalılıq mülahizəsinə tabe etdirilməsi insanın yolverilməz təhqiri, onun əzəmətinin və ləyaqətinin xəyanətkarcasına unudulmasıdır. Bu iki müxtəlif, üstəlik də bir-biri ilə ziddiyyət təşkil edən mövqe arasında barışmaz münasibət mövcuddur, biz onlardan birini seçməliyik.

Xatırlatdığımız seçimə gəldikdə isə qeyd edək ki, indiki dövrün insanları, şübhəsiz, ona birmənalı münasibət bəsləmirlər, bunun cürbəcür səbəblərindən də biri budur ki, həyat şəraitində baş verən dərin dəyişikliklər bu problemin yeni cəhətlərini üzə çıxarıb. *(...)*

İndi şəxsiyyət dəyişib. Biz bilavasitə təcrübəmiz vasitəsilə dünyanı daha çox dəyərləndirməyə başlamış, bu dünyanı tamamilə öz evimizə çevirməkdə bizə yardım göstərən çox hadisələr baş verib. Bu prosesdə elm başlıca rol oynayıb: biz elm sayəsində təbiətlə daha sıx münasibətlərə girmişik, bunun da nəticəsi çoxsaylı yeni impulslar olub, həmin impulslar da təkcə həyatımızın ayrı-ayrı sahələrini zənginləşdirməyib, həm də bütövlükdə bu həyata təsir göstərib. (...) Eyni zamanda da evolyusiya nəzəriyyəsi insanın təbiətdən asılılığını göstərib: insan indi özünü təbiətin bir parçası kimi qavrayıb, sanki öz mahiyyətini də daha aydın başa düşüb. *(...)*

Bizim maddi aləmimiz – ətraf mühit – və ona münasibətimiz böyük əhəmiyyətə malikdir. Hər bir fəlsəfə və ona əsaslanan təcrübə bu faktla hesablaşmaya bilməz. Amma naturalizm bu faktın sadəcə etiraf edilməsindən çox-çox irəli gedir, belə bir iddia irəli sürür ki, insan bu dünya ilə əlaqələri sayəsində tamamilə determinasiyaya uğrayıb, özü də yalnız təbii proseslərin bir hissəsidir. Bu tamamilə başqa yanaşmadır və bu cür bəyanat ciddi surətdə araşdırılmalıdır. Çünki tarix bizə öz mülahizələrimiz içində dolaşmağı, inqilabi dəyişikliklər öyrəşdiyimiz həyat tərzini dağıdanda çox şeyləri şişirtməyi öyrədib. Qızğınlıqdan və səhvlərdən heç də sığortalanmamış insan faktları və rəyləri asanlıqla təhrif edə bilər. Bu halda bizim başlıca vəzifələrimizdən biri faktlarla onların yozumlarını bir-birindən ayırmaqdır. Naturalizmin də belə bir yoxlamaya ehtiyacı var: o faktları prinsiplər səviyyəsinə qaldıraraq insan həyatının təbiətə münasibəti sayəsində determinasiyaya uğradığı barədə söz açır, bizim dəyərlər sistemimizi də həmin nəzər-nöqtəsinə uyğunlaşdırır.

*(...)* İnsanın görkəmli nailiyyətləri – təbiəti bütövlükdə dərk etmək – onun təbiət aləmi üzərində üstünlüyünü və başqa

səviyyəyə malik gerçəkliyin mövcudluğunu sübuta yetirir. Buna görə də təbiətdən başqa heç bir şeyi qəbul etməyən naturalizmin əleyhinə çıxmaq üçün yalnız təbiəti əqli konsepsiyaya çevirmiş müasir elmin mövcud olduğunu söyləməkdə haqqımız var. Müasir elmin intellektual nailiyyətlərindən və daxili quruluşundan nə qədər yaxşı öyrəniriksə, bu elmi naturalizmdən ayıram böyük məsafəni o qədər çox aydın görürük.

İnsanın təbiət üzərində üstünlüyü, eyni zamanda, müasir texnologiya ilə də təsdiq edilir, çünki müasir texnologiya müəyyən şeyləri öncədən görməyə və planlaşdırmağa, yeni imkanları üzə çıxarmağa, dəqiq hesablamalar aparmağa, cəsarətli təşəbbüslər irəli sürməyə yol açan təxəyyülün qüdrətini tələb edir, belə bir qüdrətin də insanda olduğunu sübuta yetirir. Bəyəm, istisnasız *"təbii"* olan məxluq bütün bunları gerçəkləşdirmək iqtidarında olardımı? *(...)*

*(...)* Naturalizm qətiyyən müasir həyat tərzinin adekvat ifadəsi deyil. Əksinə, bu həyat tərzi artıq öz mənbəyindən kənara çıxıb və naturalist dünyagörüşdən daha böyük mənəvi müstəqillik aşkar edib. Həyatın özü həyatın naturalistcəsinə yozumu ilə ziddiyyətə girib. Ətraf mühitin artıq bizim üçün daha vacib rol oynaması heç də onun sadəcə bir parçası olduğumuzu ifadə etmir. Naturalizm insan zəkasının onda doğurduğu dəyişiklikləri təbiətin öz ayağına yazmaqla səhvə yol verir. Bu səhv bizim diqqətimizi son nəticələr üzərində cəmləşdirməyimiz, onları təkbaşına yaradacaq qüvvəni sezməməyimizlə bağlıdır.

Bununla belə, fakt faktlığında qalır: insan zəkasının ətraf mühit üzərində işlədiyi, bu mənada da ondan asılı olduğu bir obyekt kimi ehtiyacı var. Amma belə bir vəziyyət dözülməz münaqişə doğurmur, bəyəm? Ətraf mühitin yenidən qurulması prosesi nəhəng bir intellektual enerjini üzə çıxarıb, həmin ener-